BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2010*

# KOMPYUTER İNFORMASİYASI VƏ ŞƏXSİYYƏTİN SOSİAL İNKİŞAFI

**A.M.İMANOVA**
***Bakı Dövlət Universiteti***
***azada69@mail.ru***

*Məqalədə kompyuter informasiyasının səciyyəvi xüsusiyyətləri, şəxsiyyətin sosiallaşma prosesinin baş verdiyi sosial mühitin formalaşması və idarə edilməsində rolu açıqlanır, sosiallaşmanın üsulu və faktoru kimi kompyuter informasiyasının təkmilləşdirilməsinin əhəmiyyəti, yeni kompyuter mühitinin formalaşdırılmasının əhəmiyyəti göstərilir. Kompyuter informasiyasının qloballaşdırma rolu, şəxsiyyətin dərkinin dəyişilməsi, şəxsiyyətin sosiallaşmasında kompyuter bilgilərinin artan əhəmiyyəti xüsusi qeyd olunur. İnformasiya qeyri-bərabərliyinin, onun cəmiyyətin və şəxsiyyətin inkişafında tormozlayıcı rolunun sosial mahiyyəti açıqlanır. Belə bir neqativ halın tamamilə aradan qaldırılması planında kompyuterləşdirmə siyasətinin düzgün qurulması vacibdir. Məqalədə eyni zamanda kompyuter savadsızlığının aradan qaldırılması kimi, şəxsiyyətin sosiallaşmasının normal prosesinin təmin edilməsi faktoru kimi informasiya bərabərliyinin üstün əhəmiyyəti qeyd olunur.*

Kompyuter inqilabı informasiyanı dövrümüzün baxışlarının diqqət mərkəzinin başlıca obyekti etmişdir. İnformasiyanın həyatın əsası kimi qəbul edilməsi ideyasını yəqin ki, biologiyanın daxil motivasiyasına müncər etmək mümkün deyildir (1). Cəmiyyətdəki dəyişiklikləri dərk edərkən sosial, iqtisadi və siyasi elmlər yeni qlobal təsir faktoru kimi kompyuter informasiyasına müraciət etməli olurlar. İnformasiya cəmiyyəti ilə bağlı nəşrlərin sürətlə artmasını qlobal şəbəkə fenomeni stimullaşdırır. Nəşrlərin çoxunda kompyuterəqədərki dövrlərdə mövcud olmuş sosial inkişaf modellərinin və priotetlərin modernləşməsi təklif olunur. Əvvəlki problemlərin həllində informasiyaya elitanın sadəlövh assistenti rolu həvalə olunurdusa, indi sosial mühitin daxili antaqonizmi kompyuterlə konservasiya edilir. Cəmiyyətin və şəxsiyyətin tərəqqisinin başlıca hərəkətverici rolu əvvəlki kimi aydın, yaxud gizli formada sosial bərabərsizlik antoqonizminə verilir. Lakin həqiqətənmi sosial antoqonizm kompyuter aləmində inkişafın zəruri şərti olaraq qalır? Və bu məcrada şəxsiyyətin sosiallaşması necə keçir?

Tarix səhnəsinə yalnız kompyuterin yaranması ilə meydana gələn çoxlu sayda informasiya cəmiyyəti nəzəriyyələri aşağıdakı suallara tam cavab verməmişlər: “Sosial bərabərsizliyin səbəbləri və funksiyaları nədən ibarətdir?”, “Sosial inkişafın funksiyaları nədən ibarətdir?”, “Sosial vahid mühitdə şəxsiyyətin inkişafı və azadlığı harmoniyasına nail olmaq mümkündürmü?”. İndiki qlobal informasiyalı kompyuter dövründə belə cavabları nə qaneedici, nə də son hesab etmək olar (2).

Tərəqqini idarə etmək sənəti inkişafın hərəkətvericisi qüvvəsi kimi sosial an-

taqonizmin energetikasının saxlanmasından və istifadəsindən ibarət olmuşdur. Antaqonizmin partlayış energetikası hər zaman idarəetmədə asan başa düşülməmişdir. Tarixdə bəzən formasiyaları dəyişən üsyanlar, inqilablar çox olmuşdur, lakin onlar heç zaman sosial antoqonizmin ilkin səbəblərini aradan qaldırmamışlar.

Qlobal kompyuter şəbəkəsinin təşəkkül tapması ilə sosial mühitdə idarəetmənin, özünütəşkilin prinsipcə yeni imkanları yaranmış və açıq qlobal əlçatar və avtomatik dəyişən kompyuter informasiyası ilə tənzimləmə üsulu meydana gəlmişdir. Güman edilən perspektivdə həmin imkanlar və kompyuter informasiyası sosial mühitin konfliktsiz balanslaşdırma vasitəsilə harmoniyalaşdırılmasının təməl əsasını təşkil edə bilərlər. Bu, əsrlərlə antoqonist mühitdə təşəkkül tapmış "iqtisadiyyat-siyasət" müstəvisində güc idarəçiliyi yanaşmalarına real alternativdir. Bu yanaşmaların əsasında sarsılmaz prinsip olaraq informasiya azadlığının məhdudlaşdırılması durmuşdur.

Sosial mühitdə informasiyanın xüsusi rolunu başa düşmək üçün kibernetikanın təkamülə münasibətinə canlı sistemlərin ən sadə orqanizmlərindən insan cəmiyyətlərinədək oxşar bir prinsiplə inkişafına informasiya prosesi kimi baxmaq lazımdır (3).

Kompyuter insanın informasiyanı işləməsi məsələsində unikal imkanlarını təkrar edir və möhkəmlədir. Canlı sistemlərin təkamülündə informasiya ən sadədən başlayan informasiyanın saxlanması, ötürülməsi və dəyişdirilməsinin daşıyıcıları olan orqanizmlərlə birlikdə inkişaf etmişdir. İlkin sosiallaşma təzahürlərinə mifologiyada və mifoloji təsəvvürlərdə rast gəlindiyi üçün ilk canlı orqanizm informasiya daşıyıcıları hesab edilmişdir (4).

Qapalı sistemlərdə bir-birləri ilə əlaqədə olan daşıyıcılar həyat təminatı və reproduksiya funksiyalarını yerinə yetirirlər. Təkamül yüksəldikcə həm baza hərəkətlərinin, rəngarəng təcəssüm formalarının, həm daha mürəkkəb orqanizmlərini və populyasiyaların meydana gəlməsini təmin edən informasiya imkanlarını nümayiş etdirir. Bu mürəkkəb orqanizmlər həm daxili (orqanizmin bütövlüyünü saxlamaq), həm də xarici (ətraf mühitlə və özü kimiləri ilə qarşılıqlı əlaqə) informasiyanı işləmək funksiyalarını yerinə yetirir.

İnsan şüuru elə bir informasiya məkanı formalaşdırmışdır ki, burada sosial mühitin idarə olunması və özünütəşkili vəzifələri həll edilir. Burada həm də təkamülün başlanğıc – texnogen mərhələsi başlayır. Sosial əhəmiyyətli informasiya biokimyəvi substansiyasından ayrılaraq təkamül prosesinin obyektlərinə çevrilir. Sosial, inkişafın tempi sürətlənir, artmaqda olan informasiya axınları insanın fərdi imkanlarını üstələyir. Onların, yəni informasiya axınlarının vaxtında təşkili üçün informasiyanın kollektiv işlənilməsi lazım gəlir. Dövlətin özü ikinci informasiya aqreqatı kimi Homo Sapiensdən sonra həm informasiya, həm də sosial inkişafın mərhələsi olur (4). Sosial fərdlərin inkişafı kontekstində subyektlərin aktiv fəallığı ilə sosial mühitin informasiya strukturunun təkmilləşdirilməsi artmaqda olan informasiya axınlarının işlənməsi üçün zəruri olan məhsuldarlığın da artmasını təmin edir.

Sosial bərabərsizlik dövlətin sosial inkişafını təmin edən, fərdləri canlı fəaliyyətə cəlb edən, bununla da şəxsiyyətin sosiallaşmasına təkan verən informasiya maşını kimi fəaliyyətinin zəruri şərti olmuşdur.

Sovet sistemindən fərqli olaraq bazar sistemi artmağa olan informasiya axınlarını işləmək üçün daha qabil ictimai faktor olmuşdur. Bunun nəticəsində istehsalın qüsurlarının vaxtında azaldılması, həyatın müxtəlif sahələrində elmi-texniki nailiyyətlərdən kütləvi istifadə edilməsi və yüksək inkişaf tempi, böhranları aradan qaldırmaqla sosial balansların yeniləşdirilməsi, əhalinin böyük hissəsinin yaşayış sə-

viyyəsinin artırılması və bütün bunların sosiallaşdırma faktorları kimi çıxış etməsi mümkün olmuşdur. Bazardan imtina etmək və onun informasiya səlahiyyətlərini bürokratik aparata həvalə etmək cəhdi özünü qətiyyən doğrultmadı (5).

Sovet sisteminin dağılmasının ilkin informasiya səbəblərini təkcə "iqtisadiyyat-siyasət" müstəvisi ilə lokallaşdırmaq düzgün olmazdı. Burada həlledici rolu sistemin total daxili informasiya böhranı oynamışdır. Sosial özünütənzimləmənin informasiya axınları bürokratik sistemin zəif informasiya kanallarını məhv etdi. Bunu da dərk etmək vacibdir ki, bu total informasiya böhranı bir presedent kimi bütün inkişaf etmiş ölkələr üçün real təhlükə yaradır. Deməli, məsələ yalnız siyasi quruluşda və iqtisadi ukladda deyil.

Ardı kəsilməyən informasiya axınına qarşı sosial mühitin "həzmetmə" qabiliyyəti başlıca məsələdir. Cəmiyyətin və fərdlərin ictimai inkişafının başlıca faktoru olan sosial əhəmiyyətli informasiyanın yolunda heç bir ideoloji siyasi hədd qoyulmamalıdır. Həyat təminatının əsasında duran maddi məhsulların istehsalının öz dəyəri buraxılmış qiymətin mühüm hissəsini təşkil edir. Qiymət mexanizmi ilə bazar avtomatik olaraq maddi məhsulların hamıya çatmayacağını irəlicədən tənzimləyir. İnformasiya qeyri-məhdud şəkildə artırıla bilər ki, bu da onun kəsirsiz olduğundan xəbər verir. Ona görə də, informasiyanın aradan qaldırılması, kəsirsiz bazar tənzimləmələrinin tətbiq edilməsi informasiyanın inkişaf kanallarını arzuedilməz dərəcədə daraldır. Həmin tənzimləmələr informasiya və sosial inkişaf yolunda maneəyə çevrilirlər. İnformasiyanın, istehsalı-istehlakın sosial tənzimləməsinin əsası kimi, belə bir prinsipini qeyd etmək yerinə düşərdi: hər kəsdən qabiliyyətinə, hər kəsə tələbatına görə. Burada şəxsi fayda ictimai fayda ilə əlaqələndirilir: bacardığın qədər cəmiyyətə ver, istədiyin qədər al.

Sosial mühit informasiya sahələrinin konfiqurasiyasına tabedir, lakin ictimai subyektlərin fəaliyyət məkanı kimi informasiyanı da yaradan odur. Kompyuter mühiti informasiya konfiqurasiyalarının formalaşdırılmasının tamamilə yeni əlavə və qlobal təsir faktorudur. Sosial mühitin idarə olunması və fəaliyyət subyektlərinin özünütəşkili kompyuter informasiya sahəsinin keyfiyyəti ilə sıx bağlıdır.

Cəmiyyətlərin və fərdlərin təkmilləşdirilməsi və sonrakı inkişafı üçün kompyuter informasiyasının təkmilləşdirilməsi yolu ilə prinsipə yeni imkanlar açılır. Kompyuter mühitinin təkmilləşdirilməsi və burada vahid və yüksək təşkilli kompyuter informasiya sahəsinin formalaşdırılması həm də elmi-texniki problemdir (6). Onun sürətlə və uğurla həlli üçün artıq texnoloji şərtlər mövcuddur.

Bu gün Azərbaycan, inkişaf etməkdə olan ölkə kimi, informasiya cəmiyyətinin qurulmasını özünün milli inkişaf prioritetlərindən biri kimi müəyyənləşdirmişdir. Bu o deməkdir ki, ölkə rəhbərliyi hər bir vətəndaşın İnternetə qoşulmasına imkan yaratmaqla yanaşı, həm də informasiya texnologiyaları sahəsində layihə-investisiya qoyuluşunu artırmaq siyasətinə üstünlük verir.

Hazırda milli əlamətə görə bölgü öz yerini iki sistemə verir: birinci sistem İnternetə əlçatarlığı olan və qərarların qəbul edilməsində güclü dəstəyə malik olanlar; ikinci sistem isə özünün heç bir şeyi olmayan, geridə qalmağa məhkum olanlardır. Bu gün ölkələrin çoxu belə seçim qarşısında durur: ya öz potensial üzvlərinin izafi tələbatlarına biganə qalmayıb irəli getmək, xalqın arzu etdiyi xoşbəxt cəmiyyəti qurmaq, ya da yoxsulluğa düçar olunmuş destruktiv, fraqmentləşmiş aləmdə yaşamaq.

Lakin bu istiqamətdə sosial təşəbbüslərə müxtəlif tərəfdən təzyiqlər edilir. Bu, hər şeydən əvvəl, heç də rəvan keçməyən qloballaşma proseslərinin və dünya ba-

zarlarının təkamülü, lakin ümumi rifahın inkişafının təmin olunmaması ilə izah edilir. Hər bir ölkə iqtisadi inkişafda sıçrayışa nail olmaq məqsədi ilə informasiya texnologiyaları sahəsində mövcud proseslərə yaradıcı yanaşaraq investisiya qoyuluşuna nail ola bilər. Bütün bunlar yeni yanaşmaları tələb edir, insan potensialından səmərəli istifadəni önə çəkir. Bu bir növ Xose Mariya Xiqeyresin qeyd etdiyi kimi "virtual dairədir" (7). Bu dairəyə daxil olmuş ölkələr öz idarə sistemlərini təkmilləşdirməklə daha şəffaf tənzimləmə mexanizmləri yaradacaq ki, bu da inkişaf üçün yeni imkanlar açan daha geniş, daha güclü bazarların meydana gəlməsinə gətirib çıxaracaq, ölkədə sağlam sosial mühitin yaranması üçün vacib olan demokratik dəyərləri möhkəmləndirməyə, dayanıqlı inkişafın bərqərar olması üçün mümkün şəraiti yaradacaq.

Birləşmiş Millətlər Təşkilatı bütün Bəyannamələrində şəxsiyyətin inkişafını və yoxsulluğun ləğv edilməsini bir məqsəd kimi irəli sürmüşdür.

İnformasiya texnologiyalarından istifadə olunması həmin Bəyannamələrin məqsədlərinə BMT informasiya və kommunikasiya texnologiyaları üzrə işçi qrupunu yaratmışdır. Onun işində dövlət və özəl sektorlarla yanaşı vətəndaş cəmiyyətinin təmsilçiləri də iştirak edirlər. Bu üç qüvvə elektron sahəsində strategiyaların işlənib hazırlanması və tətbiqi naminə birləşmişdir.

Deyilənlər kontekstində hər bir ölkənin, insan potensiyalından səmərəli istifadə etməklə, ən mühüm vəzifəsi informasiya texnologiyası sahəsində tələbatları maliyyələşdirməkdir. İnformasiya texnologiyalarının inkişaf etdirilməsi, bütövlükdə cəmiyyətin özünün yeni keyfiyyət səviyyəsində sosiallaşmasının başlıca şərti kimi çıxış edir.

"İnformasiya texnologiyaları və şəxsiyyətin inkişaf potensiyası" dialektik proses kimi ikili təbiətə malikdir. Bu, həm cəmiyyətin informasiya resurslarının daha da artırılmasına kömək edir, həm də cəmiyyətin mövcud informasiya resurslarına ehtiyac duyur.

Qlobal anlarda bilik həmişə milli sərvət olmuşdur. Bunu qeyd etmək vacibdir ki, "canlı bilik" milli sərvət olmaqla informasiya resursuna daxil olmur. Burada söhbət biliyin daşıyıcılarının özgələşməsindən, daha doğrusu, biliyin öz daşıyıcılarından ayrılmasından gedir. Hər bir ölkədə "canlı biliyin" səviyyəsi tarixən təhsildə əldə edilən biliyin maddiləşməsi dərəcəsi, peşə ixtisası və s. ilə müəyyən edilir.

Bu gün cəmiyyətdə şüurun qloballaşmasının intensiv getdiyi bir şəraitdə həm bilik yaratmaq üzrə yaradıcı əməyin dəyərdən düşməsi meylini, həm də bilikdən istifadə edənin statusunun artması meylinin harmonik idarə olunması zərurəti bütün kəskinliyi ilə durur (8). Bu problemin aktuallığı son 10 illər ərzində informasiya və telekommunikasiya texnologiyalarının inkişafı və yayılması nəticəsində ictimai həyatın keyfiyyətcə dəyişməsi, cəmiyyətin həyat fəaliyyətinin iqtisadi, siyasi, sosial, mədəni və digər sahələrində inqilabi irəliləyişlərin qlobal tendensiyaya çevrildiyi bir vaxtda daha da artır. Lakin paradoks ondadır ki, bu dünya əhəmiyyətli proseslərin məcrasında cəmiyyətdə sosial stratifikasiyanın yeni növü durur. İnformasiya texnologiyaları aləminə cəlbolunma bu gün yeni resursdur. Bu resursa malik olmaq müasir cəmiyyətdə daha faydalı mövqe tutmağa imkan verir, həmçinin, yaxud bütünlükdə qrupun sosial statusunu müəyyənləşdirir.

İnformasiya bərabərsizliyinin sosial mahiyyətini dərk etmək bütün MDB məkanı üçün, o cümlədən Azərbaycan üçün olduqca vacibdir. Fransız maarifçisi J.A.Kondorse haqlı olaraq demişdir: vəziyyətlərin bərabərsizliyi və təhsilin bərabərsizliyi – bütün sosial sarsıntıların başlıca ilkin şərtləridir. Təəccüblü olsa da, informasiya bərabərsizliyinin səviyyəsi informasiya və kommunikasiya texnologiyalarının

sürətlə artması nəticəsində yüksəlir. İnformatizasiya sahəsində yüksək tərəqqi informasiya bərabərsizliyini dərinləşdirir və bu səbəbdən də, həmin bərabərsizliyin aradan qaldırılması prosesində şəxsiyyət böyük çətinliklərlə üzləşməli olur.

Sosiallaşma prosesini şərtləndirən faktorları qeyd edərkən nəzərə alınmalıdır ki, informasiya bərabərsizliyi informasiya cəmiyyətinin formalaşması dövründə sosial qrupların diferensasiyasının ən mühüm amillərindən biri olur. Bu, daha fraqmentar, çoxölçülü, hətta adət edilmiş sosial stratifikasiya strukturunu dəyişikliyə məruz qoyur. Sosial fəlsəfi ədəbiyyatda belə bir mülahizə səslənir ki, məhz əlçatar biliklərin səviyyəsi sosial diferensiasiyanı müəyyən edən faktor olur, "əmlaklıya" və "əmlaksıza" bölünmə isə yeni xarakter alır: imtiyazlı təbəqə cəmiyyətin məlumatlı üzvlərini təşkil edir, halbuki məlumatlanmamışlar "yeni yoxsullara" çevrilirlər. Tədqiqatçı S.A.Dyatlov özünün "İnformasiya cəmiyyətinin prinsipləri" əsərində göstərir ki, müasir şəraitdə ən mühüm iqtisadi resurs olaraq elmi bilik və informasiya resursları çıxış edirlər. Cəmiyyətin bütün sosial strukturu informasiya ilə effektli işləmək iqtidarında olur. Bu və ya digər fərdin, sosial statusu daha çox mövcud informasiya resursları, elmi biliklər və informasiya ilə müəyyənləşir. Lakin belə bir mülahizə də nəzərə alınmalıdır ki, cəmiyyətdə informasiyanın tən bölünməməsi həm informasiyanın istehsalının və bölünməsinin obyektiv proseslərindən, həm də informasiya münasibətləri subyektlərinin xüsusiyyətlərindən doğur. Lakin önəmli cəhət budur ki, bu xüsusiyyətlər insanlarda dünya informasiya məkanlarına "cəlbolunma" hissi formalaşdırır (9).

Şübhəsiz ki, informasiya bərabərsizliyi xüsusi nəzərdən keçirilməli olan mühüm və aktual problemlərdən biridir, ona görə də məsələnin təfərrüatına varmadan bunu xüsusi qeyd etmək istərdik ki, informasiya bərabərsizliyi cəmiyyətin inkişafı üçün böyük təhlükədir. Bunu aradan qaldırmaq üçün olan faktorlardan biri də kompyuterləşmə siyasətinin düzgün qurulması və səmərəli həyata keçirilməsidir.

Əhalinin kompyuter sahəsində savadlandırılması bu gün böyük dövlət siyasətinin mühüm istiqamətidir. Lakin vətəndaşların informasiyaya əlçatarlığı məsələsini həll etmədən dövlətin informasiya bərabərsizliyini aradan qaldırmaq məqsədi və vəzifələri yerinə yetirilə bilməz. Beynəlxalq ekspert, Tallin elektron idarəetmə akademiyasının direktoru İzar Tall qeyd edir ki, Estoniyada Seymin qərarı ilə, 1999-cu ildə bütün ölkə məktəbləri İnternetə qoşulmuşdur. Hazırda biz buna adi hal kimi baxırıq. Halbuki həmin dövrdə, yəni 1999-cu ildə bu iş hələ İngiltərədə görülməmişdi, ölkədə təbii resursların olmadığı bir şəraitdə biz bütün gücümüzü təhsilə yönəltdik. Bu hal cəmiyyətdə bütün dinamikanı dəyişdirdi.

Təbii ki, informasiya bərabərsizliyinin aşağı düşməsi kompyuter savadsızlığının aradan qaldırılması ilə paralel gedən prosesdir. Lakin bu yolda çox mühüm texniki, təşkilatı, həmçinin normativ-hüquqi çətinliklər də ortaya çıxır ki, bunları həll etmədən informasiya cəmiyyəti quruculuğu mümkün deyildir (1). Məlumdur ki, kənd yerlərində İnternet böyük problemə çevrilmişdir. Bu sahədə informasiya bərabərsizliyini azaltmaq proqramının mühüm vəzifəsi simsiz texnologiyaları inkişaf etdirməkdir. Lakin informasiya texnologiyaları üzrə mütəxəssislər yetişdirmədən texniki layihələri reallaşdırmaq çox da asan məsələ deyildir. Odur ki, ən vacib məsələlərdən biri, həmçinin informasiyanın əlçatarlığıdır. Belə olmasa, informasiya bərabərsizliyini aradan qaldırmaq proqramı havadan asılı qala bilər. Bunun üçün ilk növbədə qanunvericiliyi beynəlxalq standartlara uyğunlaşdırmaq lazımdır.

Bu gün etiraf edilməlidir ki, bəşəriyyətin inkişafı prosesində başlıca cəhət şüu-

run qloballaşmasının üçüncü mərhələsinin başlanğıcıdır. Şüurun qloballaşmasının birinci mərhələsi Magellanın və Kolumbun kəşfləri ilə bağlıdır. Bu zaman bəşəriyyət əvvəllər sonsuz hesab etdiyi planetin məhdud olduğunu ilk dəfə dərk etdi. İnsan şüuru sanki yeni planetlə üzləşdi. İctimai şüurun ikinci qloballaşması Y.Qaqarinin kosmosa çıxması ilə başlandı. İnsan ilk dəfə kosmosdan yaşadığı planeti gördü və dərk etdi ki, planetimiz kiçik və kövrəkdir, onu qorumağı öyrənmək lazımdır. İkinci mərhələni bəşəriyyət bu gün yaşayır. İnformasiya cəmiyyətinin məqsədyönlü formalaşması prosesində planetin sakinləri informasiya asılılığını dərindən dərk etməyə başlamışlar. Bu son dərəcə mühüm humanitar və ümumbəşəri, ilk növbədə, cəmiyyətin qlobal informatizasiyalaşması prosesi ilə sıx şərtləşmiş fenomendir.

Bu, həm də o deməkdir ki, müasir insan keyfiyyətcə yeni qlobal sosiallaşma prosesini yaşayır.

## ƏDƏBİYYAT


1. На пути к информационному обществу. Автоматизированные информационные ресурсы России. Состояние и тенденции развития // Вестник РОИВТ. 1994, №4-5, с.5-66.
2. Затуливетер Ю.С. Информационная природа социальных перемен. Серия «Информация и социум» М.: СИНЕТ, 2001, 132 (http: // znt. hotboks.ru. / book.htm).
3. Тургин В.Ф. Феномен науки. Кибернетический подход к эволюции. М.: ЭТС. 2000, 369 с.
4. Вторичная социализация. File : // F: b. Vuz Lib. Net. Htm.
5. Серафимова З.Е. Проблемы социализации юношества в условиях НТП. М., 1990 http:// www/ upraz/ biz/materials /pseholqy /uieru / 1825.hite? next =7.
6. Затуливетер Ю.С. Компьютерная информация и социальный прогресс // Технологии информационного общества. С.П.: 2003, с. 11-13.
7. Хосе Мария Фигейри. Информационные технологии и потенциал развития личности. file: // F: / 21 марта 2009 г.
8. Колин К.К. Информационная глобализация общества и гуманитарная революция. File: // F: K.K. Kolin. Htm.
9. Деятлов С.А. Принципы информационного общества. www.e maq. Iis.ru/arc/infosoc/.


## КОМПЬЮТЕРНАЯ ИНФОРМАЦИЯ И СОЦИАЛЬНОЕ РАЗВИТИЕ ЛИЧНОСТИ


**А.М.ИМАНОВА**


## РЕЗЮМЕ


В статье раскрывается характерная особенность компьютерной информации, ее роль в формировании и управлении социальной сферы, где происходит процесс социализации личности. Показывается важность совершенствования компьютерной информации как способа и фактора социализации, формирование новой компьютерной сферы. Особо отмечается глобализирующая роль компьютерной информации, изменение сознания личности, возрастание значения компьютерного знания в социализм личности. Раскрывается социальная сущность информационного неравенства, его тормозящая роль в развитии общества и личности. В плане преодоления этого, в целом, негативного явления необходимо правильное построение политики компьютеризации. Отмечается значимость преодоления информационного равенства как способа повышения компьютерной неграмотности, как фактора обеспечения нормального процесса социализации личности.

# COMPUTER INFORMATION AND AN INDIVIDUAL'S SOCIAL DEVELOPMENT

**A.M.IMANOVA**

## SUMMARY

The article studies characteristic features of computer information, its importance in the formation and management of social sphere where an individual socializes. The perfection of computer information is marked as an important means and factor of socialization, formation of a new computer sphere. The author lays emphasis on the globalizing importance of computer information, change in the individual's consciousness, extension of the importance of computer knowledge for an individual's socialization and analyzes social essence of information inequality, its hampering role in the social and personal enhancement. Sound formation of computerization policy is needed to cope with these negative developments.

The importance of information balance is marked as a means of computer illiteracy as well as a factor of providing an individual's socialization process.